**Vüsalə AĞABƏYLİ**
**Filologiya üzrə fəlsəfə doktoru, dosent**
**Azərbaycan Dillər Universiteti**
**vusale.agabeyli@gmail.com**

# NİZAMİ YARADICILIĞINDA GENDER MƏSƏLƏLƏRİ

Nizami Gəncəvi yaradıcılığı o qədər zəngin, o qədər çoxşaxəlidir ki, bir çox tədqiqatların obyektinə çevrilmişdir. Eləcə də gender tədqiqatları baxımından Nizami yaradıcılığını araşdırmaq və təhlil etmək böyük əhəmiyyət kəsb edir. Bəzən gender məsələləri və onun tədqiqi dedikdə, yalnız feminist tədqiqatlar başa düşülür. Doğrudur, müasir gender tədqiqatlarının ərsəyə gəlməsində feminist nəzəriyyələrin və tədqiqatların əsaslı rolu olmuşdur. Lakin hazırda gender tədqiqatlarının əsas qayəsi insan faktorudur, demokratiyanın bərqərar olmasıdır. Müasir dövrün gender tədqiqatları yalnız qadın problemlərini deyil, cinslərin mühüm xüsusiyyətlərinin, cinslər arasındakı münasibətlərin, cəmiyyətdə və siyasətdə cinslərin mövqeyinin ilkin olaraq cinslərin sosial-psixoloji və sosial-mədəni, linqvokulturoloji xüsusiyyətləri aspektindən araşdırılmasını nəzərdə tutur. Elə buna görə də Nizami Gəncəvinin əsərlərindəki qəhrəmanlar, xüsusilə də qadın obrazları gender tədqiqatları baxımından maraq kəsb edir. Yəni bütün bu əsərlərdə insan şəxsiyyəti, qadın məsələsi şairin düşüncələrinin başında gəlir. Nizami yaradıcılığının əsas mərkəzində insan və onun taleyi, ədalətli və xeyirxah cəmiyyətdə təsviri durur ki, bu da müasir dövrün gender tədqiqatlarının əsas mövzusunu təşkil edir.

“Leyli və Məcnun” haqqında xalq dastanını yazılı ədəbiyyata gətirən ilk şair olmaqla yanaşı, Nizami Gəncəvi Şərq ölkələri ədəbiyyatlarında, şübhəsiz ki, müsbət qadın surəti də yaratmış ilk şairdir. “Xəmsə”nin bütün poemalarında aparıcı surətlər qadın surətləridir. Onu da vurğulamaq lazımdır ki, Nizami yaradıcılığın-

dakı ideyalar, qaldırdığı məsələlər və qadına münasibət beş-altı əsr sonra Qərb ədəbiyyatında gündəmə gəlib. O, qadına layiq olduğu yüksək qiyməti o zaman vermişdir ki, onda qadına ikinci dərəcəli insan kimi baxılırdı. O dövrdə qadın əvvəlcə ata, sonra ər evində dilsiz bir kəniz idi. Kənizləri və qızları hədiyyə kimi bir şəhərdən başqa şəhərə və bir saraydan başqa saraya göndərirdilər. Dərbənd şəhərinin hakimi Nizamiyə Afaq adlı kəniz hədiyyə edir, o isə Afaqı kəniz kimi deyil, həyat yoldaşı kimi qəbul edir, onu sevir və onunla evlənir. Bu cür faciəli vəziyyət, qadının bu cür acınacaqlı taleyi insanpərvər şairi düşündürürdü və o, yaradıcılığının yarıdan çoxunu bu məsələyə həsr edir. Cəmiyyətin qadını ikinci dərəcəli varlıq olaraq görməsi, qadının hüquq və səlahiyyətlər baxımından kişilərdən asılı olması, o cümlədən, sosial və iqtisadi durumu haqqında Nizami Gəncəvinin XII əsrdə təsvirləri feminizm fəlsəfəsinin əsasını qoyan fransız filosof Simone de Bouvarın 1949-cu ildə yazdığı "The Second Sex" ("İkinci cins") əsərindəki bir çox fikirləri ilə uyğun gəlir. Nizami qadına çox yüksək qiymət verir, qadını mərd, iradəli və bacarıqlı görür:

*Çox gözəl arvad var, mərdlikdə bir şir, Çox ipək içində şirlər gizlənir* ("Xosrov və Şirin").

Nizami yaradıcılığı gender tədqiqatları baxımından ona görə xüsusi əhəmiyyətlidir ki, Nizami Gəncəvi qadını yalnız ilahi eşqin təcəssümçüsü, paklıq və nəciblik rəmzi olaraq verməklə kifayətlənmir. Qadını ən ali hakim təbəqəyə, idarəetmə mövqeyinə qədər qaldırır. Nüşabə, Məhinbanu, Şirinin timsalında biz bunları görə bilirik. Nizaminin yaratdığı qadınların əməllərində və rəftarlarında olan qətiyyət, nəcabət və rəşadət onların səciyyəvi xüsusiyyətlərindəndir. Nizami əzəmətli sərkərdə hesab etdiyi Makedoniyalı İsgəndəri çəkə-çəkə öz ölkəsinə, Nüşabənin qarşısına gətirir və onun qarşısında baş əyməyə vadar edir, İran şahı Xosrovu itizəkalı və gözəl simalı Şirinin mənəvi

sayıqlığının təsiri altına salır, Fərhada Şirinin eşqi ilə Bisütun dağını yardırıb yol saldırır. Nizaminin təsvir etdiyi qadınlar həm gözəl, cəlbedici, həm də ağıllı, qətiyyətli, bacarıqlı və işgüzardırlar:

...Dedilər: Gördüyün bu var, bu yatır,
Bu gözəl torpaqlar bir qadınındır,
Qadındır, erkəkdən ürəkli, qoçaq,
Dəniz incisindən təmiz və parlaq!
Tayı yox süurda, adda və sanda,
Rəiyyət becərir çətin zamanda... ("İsgəndərnamə")

Maraqlıdır ki, Nizaminin təsvir etdiyi şahlar, sultanlar hakim mövqeyin surətləri çox zaman zalım və zülmkar olsa da, onların arvadları və ya digər qadın obrazları cazibəli, gözəl və xeyirxahdır. Məsələn, Şirinin hakimiyyəti illərində şəhərlilərdən bac və kəndlilərdən xərac alınmırdı. Əhali ona böyük hörmət edirdi.

Nüşabə isə Nizaminin yaratdığı ən yüksək mövqeli və ideal qadın obrazıdır. Hakimi Nüşabə adlı bir qadın olan qədim Bərdə diyarı bu hökmran qadının ədalətinin kölgəsində çox gözəl və abad bir məkana çevrilmişdir. Oranın sakinləri iztirab və qüssə məfhumunu bilmirlər: *"Orada şadlıqdan başqa bir şey tapmaq olmaz",* çünki o ölkədə haqq-ədalət var, o ölkədə bərabərlik var: *"Həqiqətən, göyərən bitkilər Toxumdan yox, ədalətin ətəyindən göyərər"* ("İsgəndərnamə"). Poemada Makedoniyalı İsgəndər filosof və cəngavər kimi təsvir olunur. Onun əbədi həyat və ideal cəmiyyət qurmaq üçün ölkələri fəth etməyə məntiqi əsası vardır, o, yer üzündə haqq və ədalətin bərqərar olmasını arzulayır. Lakin bütün bunlar xoşbəxt ölkənin xalqının həyatı ilə müqayisədə cüzidir. Çünki xoşbəxt ölkədə cəmiyyətin əsasını insanların düzgün münasibətləri təşkil edir və sakinlər ideal insanlardır. Nüşabə adlı qadının taxta oturaraq hakimlik etdiyi bu cəmiyyətdə paxıllıq, xudbinlik, tamahkarlıq və bu кimi

nalayiq hisslərə və hərəkətlərə yer yoxdur. İsgəndəri maraq bürüdüyü üçün Nüşabə ilə görüşmək istəyir. Görüş zamanı Nüşabə süfrəyə yemək əvəzinə ləl-cavahirat, daş-qaş düzür. Bununla da müharibəni, işğalları və onun nəticəsində əldə edilən daş-qaşın lazımsız olduğunu vurğulamağa çalışır. İsgəndər qadın hökmdarın ağlına, uzaqgörənliyinə, adil və zirəkliyinə heyran qalır, onun ölkəsinə ziyan vurmadan gedir: *İsgəndər səbr etdi dərdə, kədərə, Təslimlə dik başı əyildi yerə* ("İsgəndərnamə").

"Xosrov və Şirin" əsərində isə Nizami Şapurun dilindən Şirini elə gözəl, elə bədii ustalıqla təsvir edir ki, Xosrov Şirini görmədən ona aşiq olur. Daha sonra isə Şirin Xosrov kimi şəhvət düşkünü, ədalətsiz, xain, xalqdan uzaq bir şahı qadın qüdrətiylə mənəvi cəhətdən dəyişdirməyə, onu ideallaşdrımağa nail olur.

...Dirilik suyudur gözü, qapqara,
Gecəni qərq edir aytək nurlara.
Hündür boyu – gümüş xurma ağacı,
Xurma dərən bir cüt zəncidir saçı.
Dişləri sədəfdən daha parlaqdır,
Dişindən nur alan sədəf də ağdır.
Ulduzlar da olmaz hüsnünün tayı,
Ötmüş gözəllikdə günəşi, ayı... ("Xosrov və Şirin")

Nizami zülmət, nadanlıq və cəhalətin hakimiyyəti dövründə Məcnunun haqqını və məzlumluğunu göstərmək üçün çürümüş əxlaqi meyarları, köhnə adət-ənənələri tənqid atəşinə tutur və Məcnun təkbaşına üsyan bayrağını bütün cəmiyyətə və onun adət-ənənələrinə qarşı qaldırır. Əlbəttə, bu arzu nə fiziki, nə də cismani deyil, əksinə, mənəvi bir arzudur. Lakin zamanın çürümüş adət-ənənələri və qaydaları cəmiyyətin bütün insanlarının ruhunu kor etmiş və şüurunu zəhərləmişdir. Leyli bir qadın olaraq belə bir cəmiyyətin qurbanıdır. Leylinin heç bir

haqqı və hüququ yoxdur. Nizaminin Leylisini XIX əsr Viktoriya dövrü ədəbiyyatı yazıçılarından Thomas Hardinin əsərlərindəki qadın surətləri ilə müqayisə etmək olar. Nizami Leylinin daxili iztirablarını, sevgisini, ehtirasını, sevgilisinə qovuşma arzusunu XII əsrdə təsvir edə bilmişdisə, XIX əsrdə Hardi "Tess of the d'Urbervilles" əsərində baş qəhrəman Tess obrazının sevgisi, ehtirası, qadın olaraq daxili iztirablarının təsvirinə görə dövrün tənqidçiləri tərəfindən qınaq obyektinə çevrilmişdi.

Gördüyümüz kimi, Nizami öz dövrünün qüsurlarını və problemlərini açmaqla yanaşı, onun yaradıcılığı müasir dövr gender tədqiqatları üçün də önəmli mənbə olaraq qalır. İstər Şərq ədəbiyyatı, istərsə də Qərb ədəbiyyatı yazıçılarının həmin dövr əsərləri və qadın obrazları ilə müqayisədə aydın görünür ki, Nizami qadının yalnız gözəlliyini, cazibədarlığını vəsf etməklə yetinmir, inqilabi bir təfəkkürlə qadınları hakim mövqelərdə, həlledici qərarların verilməsində ən önəmli varlıq kimi təqdim edir.

**Vusala Aghabayli**

## GENDER ISSUES IN NIZAMI'S OUEVRE

***Summary***

Nizami Ganjavi's ouevre is so rich and multifaceted that it has been the object of many studies. It is also important to study and analyze Nizami's plays in terms of gender researches. The main issue of Nizami's ouevre is the image of man and his destiny, and the depiction of a benevolent and justiful society, which is the main theme of modern gender research. Nizami's appreciation of women is so high that he describes women not only for their beauty and attractiveness, but also he considers women the important beings and presents them in higher ranks, in dominant positions, describes their roles in making conclusive decisions.